

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 164 (21.065)

29 avqust 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Hacıqabul-Bəhrəmtəpə yolunun Şirvan şəhərindən keçən hissəsində – Kür çayı üzərində inşa olunan avtomobil körpüsünün açılışında iştirak edib.

* * *

Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hacıqabul-Bəhrəmtəpə avtomobil yolunun Bulaqlı-Bəhrəmtəpə hissəsinin açılışında iştirak edib.

* * *

Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı Heydər Əliyev Parkında ümummilli liderin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Prezident İlham Əliyevə abidə ətrafında aparılan abadlıq və tikinti işləri barədə məlumat verildi. Bildirildi ki, əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev Parkında rayon sakinləri, eləcə də qonaqların istirahəti üçün hər cür şərait yaradılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Beyləqanda Gənclər Mərkəzinin, şahmat məktəbinin, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən uşaq bağçasının açılışlarında iştirak edib, əsaslı təmir və yenidənqurmadan sonra Mərkəzi Şəhər Stadionunda yaradılmış şəraitlə tanış olub.

## Şərurda beş məktəb binası yenilənir

### Bununla, son illərdə inşa olunan və əsaslı təmir edilən binaların sayı qırxı ötəcək

***Şərur Rayon Təhsil Şöbəsinin tabeliyində 54 tam orta, 5 ümumi orta, 6 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Ən önəmli cəhət ondan ibarətdir ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının bölgələrə ən böyük töhfələrindən biri də yeni məktəb binalarının inşası ilə bağlıdır. Son illər Şərur rayonunda 40-dan çox məktəb binası tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilib.***

Təkcə ötən il 234 şagird yerlik Sərxanlı, 110 şagird yerlik Şahbulaq kənd tam orta məktəbləri üçün yeni binalar tikilib, 1026 şagird yerlik Dəmirçi, 396 şagird yerlik Xanlıqlar, 132 şagird yerlik Gümüşlü kənd tam orta məktəblərinin binaları isə əsaslı şəkildə yenidən qurulduqdan sonra öz qapılarını müəllim və şagirdlərin üzünə açıb. Yeni məktəb binaları müasir tələblərə cavab verən avadanlıqlarla və təlimin texniki vasitələri ilə təmin olunublar.

Dizə kəndi Şərurun böyük yaşayış məntəqələrindən biridir. Bu ilin yazında burada təhsil ocağının yenidən qurulmasına başlanılıb. Artıq o vaxtdan 5 ay keçib. Ötən müddət ərzində obyektdə çox iş görülüb. Binanın suvaq qatı təmizlənib, arakəsmələr, çardaq hissə sökülüb, köhnə qapı-pəncərələr çıxarılıb, binaya yeni korpus əlavə olunub. Yenidən qurulan və zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan məktəb binasında 12 sinif otağı fəaliyyət göstərəcək. Eyni zamanda burada 2 elektron lövhəli sinif, kompüter otağı yaradılacaq. Fizika, kimya, biologiya laboratoriyaları, hərbi kabinə, kitabxana, müxtəlif fənn kabinələri müəllim və şagirdlərin ixtiyarına veriləcək. Eləcə də lazımi idman qurğuları quraşdırılacaq. Bütün bunlar isə tədrisin səviyyəsinin yüksəldilməsinə şərait yaradacaq.

Rayonun ucqar dağ kəndində – Axurada da tam orta məktəb binası əsaslı təmir olunur. Zirzəmi ilə birlikdə 3 mərtəbəli bina kəndin ən mənzərəli guşəsində yerləşir. Dərs ilinin başlanmasına az qalır. 198 şagird yerlik məktəb binasının tikintisində işlər, demək olar ki, başa çatmaq üzrədir. Binada 12 sinif otağı var. Bufet, kitabxana, kompüter otağı və idman zalı üçün məxsusi yerlər ayrılıb. Fizika, kimya, biologiya laboratoriyaları müasir avadanlıqlarla təchiz olunub. İndi obyektdə son tamamlama işləri görülür.

Məktəb binasının yenidən qurulması kənd sakinlərinin sevincinə səbəb olub. Ağsaqqal kənd sakini Vəli Vəliyev dedi ki, nəvələrim burada təhsil alırlar. Onlar üçün yaradılan bu əvəzsiz şəraitə baxdıqca ürəyim dağa dönür. Ucqar dağ kəndinə göstərilən bu qayğı və diqqətə görə dövlətimizə minnətdarlığımızı bildiririk.

Məlumat üçün bildirək ki, kənddə yaxşı təhsil ənənələri var. Bu il tam orta məktəbi 9 şagird bitirib. Onlardan 7 nəfəri ali məktəbə daxil olub. İki abituriyent isə 500-dən yuxarı bal toplayıb.

Əsaslı təmir və yenidənqurma işləri rayonun ən iri yaşayış məntəqələrindən biri olan Püsyan kəndində də sürətlə və keyfiyyətlə aparılır. Püsyan kənd tam orta məktəbində 330 şagirdin təlim-tərbiyəsi ilə 37 müəllim məşğul olacaq. Onların içərisində yüksək kateqoriyalı, qabaqcıl iş təcrübəsinə malik peşəkar pedaqoji kadrlar daha çoxdur. Məktəbin direktoru Ülkər Nağıyeva bildirdi ki, hər il burada cari təmir işləri aparılsa da, məktəbin əsaslı təmirə, bərpa və yenidənqurma işlərinə daha çox ehtiyacı vardı. "Muxtariyyət ili"ndə bu işə başlanıldı. Yeni dərs ilində şagirdlərimiz təzə məktəbdə təhsil alacaqlar. Elmə, təhsilə, böyüməkdə olan gənc nəslə, Azərbaycan müəlliminə diqqət və qayğını yüksək dəyərləndirən məktəb rəhbəri pedaqoji kollektiv adından dövlətimizə minnətdarlığını bildirdi.

Zirzəmi ilə birlikdə 4 mərtəbəli, 720 şagird yerlik məktəb binasının təmir-tikinti işləri "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır. Fənn kabinələri, sinif otaqları müasir üslubda təmir edilib, bütün qapı və pəncərələr dəyişdirilib, dəhlizlər genişləndirilib, binaya bir korpus əlavə olunub, istilik sistemi yenilənib.

Diyadin kəndində yeni məktəb binasının bünövrəsi bu ilin yazında qoyulub.

Bu günlərdə həmin kənddə məktəb tikintisinin gedişi ilə maraqlandıq. Tikintini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər.

Diyadin kəndi xan Arazın sol sahilində, mənzərəli bir yerdə yerləşir. Kiçik yaşayış məntəqəsidir. 400 nəfərə yaxın əhalisi var, Şərurun barlı-bərəkətli kəndlərindən biridir. Ümumi orta məktəbin köhnə binasının şəraiti heç də yaxşı deyildi. Ona görə də burada müasir quruluşlu üçmərtəbəli, hər şəraiti olan təzə bina ucaldılıb. Yeni məktəbə layiq təzə avadanlıq gətirilir. İşıqlı-yaraşıqlı 12 sinif otağı, bir neçə laboratoriya, fənn kabinəsi, kitabxana, kompüter otağı, elektron lövhəli sinif, idman zalı və sair üçün hər cür şərait yaradılıb.

Həmin tikinti idarəsinin inşaatçılarına Kürkənd tam orta məktəbinin 3 mərtəbəli, 216 şagird yerlik binasının da əsaslı təmiri və yenidən qurulması həvalə olunub. İş icraçısı Əli İbrahimov deyir ki, məktəb binasının təmirinə aprel ayının əvvəlindən başlanılıb. Məktəb ikimərtəbəli idi, binaya daha bir mərtəbə əlavə etmişik. Məktəb binasına həm də daha bir korpus artırmışıq. Məktəb 14 sinif otağından, kimya, biologiya laboratoriyalarından, kitabxana, elektron lövhəli sinif, hərbi kabinə, şahmat, psixoloq, direktor, müəllimlər otaqları, idman zalı və soyunub-geyinmə otaqlarından ibarətdir. Artıq divarlar boyanıb, döşəmə vurulub, qapı və pəncərələr salınıb. Binanın hər 3 mərtəbəsində dəhlizə və pilləkənlərə travertin üzlük daş döşənib, kommunikasiya xətləri çəkilib. Bir sözlə, artıq son tamamlama işləri aparılır.

Məktəbin direktoru Vəfadar Ələkbərov deyir ki, yay tətili olmasına baxmayaraq, gəlib inşaatçılara kömək edir, məktəbin ətrafında səliqə-sahman yaradırıq. Belə bir gözəl binada dərs keçəcəyimiz günü səbirsizliklə gözləyirik. Sevincimizin həddi-hüdudu yoxdur. Bir tərəfdən təzə məktəb binasına sahib oluruq, digər tərəfdən də bu il 3 nəfər məzunumuz yüksək balla müxtəlif ali məktəblərə qəbul olunub. Biz də dövlətimizin bu qayğısına əməli işimizlə cavab verməyə çalışacağıq.

Kənd ağsaqqalı Hacı Səttar Babayev söhbətə qoşularaq dedi ki, məktəb tikdirmək ən müqəddəs, ən xeyirxah işdir. Kəndimizdə təkcə məktəbin əsaslı təmiri ilə iş bitmir: inşaatçılar həm də burada kənd və xidmət mərkəzləri, təzə məscid binası ucaldırlar. Bundan böyük nə hədiyyə ola bilər? Müəllim kollektivi və kənd sakinləri adından yaradılan şəraitə və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımızı bildiririk.

Şərur rayonunda təhsil ocaqlarının maddi-texniki bazası getdikcə gücləndirilir. Məktəblərdə 793 kompüter quraşdırılıb. Bunlardan 563-ü internetə qoşulub. Eyni zamanda şagirdlər 127 elektron lövhəli sinifdən istifadə edirlər.

Şərurda təhsilə göstərilən dövlət qayğısı bu sahədə uğurların artmasının başlıca səbəblərindəndir. Təkcə bu il XI sinfi bitirən 725 şagirddən 3-ü qızıl, 2-si isə gümüş medala layiq görülüb. Ali məktəblərə sənəd verən 536 abituriyentdən 302 nəfəri tələbə adını qazanıb. Abituriyentlərdən 45 nəfəri 500-dən, 16 nəfəri isə 600-dən çox bal toplayıb.

Rayonda məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə əlaqədar tədrisin keyfiyyətinin daha da yüksəldilməsi və yeni məktəb binalarının təmiz və abad saxlanılması üçün də sistemli tədbirlər görülür. Aralıq, Xanlıqlar, Tumaslı, Qarxun, Yengicə, Zeyvə, Düdəngə kənd məktəblərində və başqa yerlərdə sanitar qruplar yaradılıb. Bununla yanaşı, yeni istifadəyə verilən binaların həyətlərinə ekoloji qruplar nəzarət edir.

Yeni dərs ilinin başlanmasına az qalır. Bu günlərdə rayon üzrə yeni dərs ilinə hazırlığın vəziyyəti ətraflı araşdırılaraq geniş müzakirə olunub. Yığıncaqda uğurlar qeyd edilməklə yanaşı, əsas diqqət həllivacib problemlərə yönəldilib. Yekdil rəy bu olub ki, hər yerdə və hər sahədə yeni dərs ilinə yüksək səviyyədə, mütəşəkkil surətdə başlamaq lazımdır.

**C.ƏLİYEV**

*Babək Rayon Məşğulluq Mərkəzində növbəti əmək yarmarkası keçirilib.*

## Növbəti əmək yarmarkaları keçirilib

Tədbiri giriş sözü ilə Babək Rayon Məşğulluq Mərkəzinin direktoru Qurban Tarverdiyev açaraq bildirib ki, "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın birinci mərhələsinin uğurlu icrası yoxsulluğun nəzərəçarpacaq dərəcədə azalmasına gətirib çıxarıb. Həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır və muxtar respublika sakinləri tərəfindən onlara göstərilən böyük qayğı kimi dəyərləndirilir.

Qeyd olunub ki, vətəndaşların səmərəli məşğulluğunun təmin olunması, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının inkişafı muxtar respublikamızda da daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Bu baxımdan yeni müəssisələrin fəaliyyətə başlamasına, sahibkarlığın inkişaf etdirilməsinə xüsusi önəm verilir. İşaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də muxtar respublikada müntəzəm olaraq keçirilən əmək yarmarkalarıdır. Yarmarkalara hazırlıq dövründə həyata keçirilən təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin, işaxtaran vətəndaşların fəal iştirakını təmin edib. Babək Rayon Məşğulluq Mərkəzi də öz işini bu istiqamətdə qurub.

Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səlvər Hacıyev çıxışında qeyd edib ki, son illərdə rayonun sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər əhalinin məşğulluğuna müsbət təsir göstərib, bunun da nəticəsində yüzlərlə insan müvafiq işlə təmin olunub. Keçirilən əmək yarmarkalarına işaxtaran əhalinin marağının böyük olması onu göstərir ki, işaxtaranlarda bu yarmarkalarda ixtisaslarına müvafiq iş tapmalarına böyük inam vardır.

İşaxtaran vətəndaş Xaliq Həsənov dövlətimiz tərəfindən əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən işlər üçün minnətdarlığını bildirərək vurğulayıb ki, bu gün məşğulluq sisteminin inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, əmək bazarının tənzimlənməsi və qeyri-məşğul əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin sosial-iqtisadi siyasətinin əsas tərkib hissəsidir. Belə tədbirlər əhali tərəfindən rəğbətlə qarşılanır.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 13 təşkilatdan 90 boş iş yerinin çıxarıldığı yarmarkada 29 nəfərə işə göndəriş verilib.

Qeyd edək ki, belə tədbir Şərur rayonunda da keçirilib. 25 təşkilatdan 253 boş iş yeri çıxarılan əmək yarmarkasında 37 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

# Sədərək: inkişafın və müasirliyin ünvanı



*Uzun illər bundan əvvəlin söhbəti indiki kimi yadımdadır. Yeri-göyü su aparırdı. Mənim üçün əziz olan, hər dəfə Sədərəyə gələndə görüşdüyüm, hamının ağsaqqal kimi tanıdığı Teymur Quliyevlə söhbət edirdik. “Bilirsən, bu yağışın nə qədər xeyri var? – deyə Teymur müəllim dilləndi. Kənd adamı quraqlığın nə olduğunu yaxşı bilir. Sən görməmisən, hər 10-15 ildən bir buralarda elə istilər, elə bürkülər olur ki, sözlə ifadəsi mümkün deyil. Ağaclar ayaq üstdə qovrulur...*

...Bu ilin avqust ayında sərhəd bölgəsi Sədərək rayonunda şahidi olduğum isti və bürkülü hava mənə neçə il əvvəl Teymur müəllimin dediyi sözləri xatırlatdı. Bir qədər kövrək, dözümsüz ağacların yarpaqları, sözün həqiqi mənasında, qovrulurdu.

Sədərək kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Əyyub Mehdiyevlə ərazini gəzə-gəzə söhbət edirdik. Bilirdim ki, təkcə bu il sədərəklilər 8 minə yaxın müxtəlif növ meyvə tingləri əkib, 15 hektar yeni meyvə bağı salıblar. Birdən gözüm yolun kənarında bu ilin yazında əkilən ağaclardan birinin saralmış yarpaqlarına sataşdı. Əyyub müəllim bunu o dəqiqə hiss etdi. Yaxınlıqdakı qol-budaqlı bir çinar ağacının kölgəsinə çəkilib kiməsə zəng vurdu...

Başımı qaldırıb qol-budaqlı, sıx yarpaqlı çinara baxdım. “Bizim təkcə bu il əkdiyimiz ağacların əksəriyyəti gələcəkdə Sədərəyin qonaqlarına bax beləcə sərinlik bəxş edəcək”, – Əyyub müəllimin bu sözləri məni ağac kölgəsi barədə olan ötəri xəyallardan ayırdı.

Rayon İcra Hakimiyyəti başçısının müavini Bəxtiyar Mahmudovla söhbətimizdə o, Sədərəyin bu günündən, bu torpağın müqəddəsliyindən söhbət açır. Deyir ki, Azərbaycanın hər qarışı, daşı, havası, suyu mənim üçün əzizdir; Sədərəyin də öz yeri var. Mən burada doğulmuşam, burada böyümüşəm və onun keçmişi, bu günü mənim üçün çox doğmadır.

Bəxtiyar müəllim danışır. Mən isə son vaxtlar Sədərəkdə görülən işləri gözümün qarşısına gətirirəm. Düşünürsən: “Az vaxtda bu qədər iş necə görülüb?” Cavab mənə elə gəlir ki, sadədir: muxtar respublika rəhbərinin qayğısı bütün sədərəkliləri qollarını çırmayıb işə girişməyə ruhlandırıb.

Bəxtiyar Mahmudov deyir ki, Ali Məclis Sədrinin diqqət və qayğısı ilə muxtar respublikanın hər yerində möhtəşəm, əsaslı işlər görülür. Biz də məhz fəaliyyətimizi gündən-günə tərəqqi edən Azərbaycanın, eləcə də Naxçıvanın inkişaf tempinə uyğun qurmağa çalışırıq. Fərəhlə demək olar ki, bu ilin ötən ilk 7 ayı muxtar respublikamızın həyatında olduğu kimi, rayonumuzun sosial-iqtisadi və mədəni həyatında da yaddaqalan olub. Əsas cəhət odur ki, bütün sahələrdə əvvəlki ilin eyni dövrü ilə müqayisədə irəliləyiş əldə edilib, aparılan genişmiqyaslı tikinti-abadlıq və quruculuq işləri daha sistemli və ardıcıl xarakter alıb.

### *Uğurları əks etdirən statistika*

Bəri başdan deyək ki, Azərbaycan Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladıqları dövlət proqramlarından, fərman və sərəncamlardan irəli gələn vəzifələrin yerinə yetirilməsi Sədərəyin uğurlarını şərtləndirən başlıca amillərdəndir.

Yeddi ayda rayonda ötən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsulu istehsalı 1,1 faiz artaraq 1 milyon 678,9 min manata, kənd təsərrüfatı məhsulları istehsalı 6 faiz artaraq 8 milyon 749,9 min manata yüksəlib.

Yeddi ayda pərakəndə əmtəə dövriyyəsinin həcmi 14 milyon 122,2 min manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövründən 2,6 faiz çoxdur. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 2013-cü ilin müvafiq dövrünün səviyyəsini 5,5 faiz üstələyərək 1 milyon 896,6 min manat olub. 2014-cü ilin ilk 7 ayında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilən investisiya 10 milyon 597,2 min manata, tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyaların həcmi 9 milyon 492,3 min manata çatıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əsas kapitala yönəldilən investisiyaların məbləği 0,1 faiz, tikinti-quraşdırma işlərinin həcmi 0,2 faiz artıb.

Rayon üzrə orta aylıq əməkhaqqının artım dinamikası da qalmaqdadır. Hazırda 392,9 manat təşkil edən orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz çoxdur. Yeddi ayda 39 nəfər daimi işlə təmin edilib.

Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 7 ayda 182 ailənin 692 nəfərinə 100 min 566 manat ünvanlı sosial yardım verilib, 14 nəfərə isə sosial pensiya təyin olunub. 16 nəfər Azərbaycan Vətən müharibəsi əlilinin hər birinə “NAZ-Lifan” markalı minik maşını verilib.

Rabitə xidmətinin müasir tələblər səviyyəsinə qaldırılması istiqamətində də tədbirlər ardıcıl olaraq davam etdirilir. Yeddi ayda 67 mənzilə telefon xətti çəkilib. İnternet istifadəçilərinin sayı daha da artıb. Elektrik enerjisi, təbii qaz və su təminatını yaxşılaşdırmaq məqsədilə həyata keçirilən tədbirlər əhalinin razılığı ilə qarşılanır.

### *Yeni quruculuq ünvanları*

Bu gün muxtar respublikamızın hər yerində olduğu kimi, Sədərək rayonunda da böyük tikinti-quruculuq işləri aparılır. Rayonda uşaqlara qayğı tükənməzdir. 2012-ci ildə Sədərək kəndində 65 yerlik uşaq bağçası istifadəyə verilib. Keçən il isə rayon mərkəzi Heydərabad qəsəbəsində zirzəmi ilə birlikdə 3 mərtəbəli, 144 yerlik uşaq bağçasının açılışı olub.

Bu ilin yanvar ayında isə əsaslı təmir olunan və yenidən qurulan Sədərək kənd 1 nömrəli tam orta məktəbin binası qapılarını müəllim və şagirdlərin üzünə açdı.

Rayonda tikinti-quruculuq işləri bununla məhdudlaşmır. Sözügedən dövrdə Şir arxından qidalanan 6,5 kilometr uzunluğunda 1500 hektar sahəni suvarmaq üçün yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi başa çatdırılaraq əhalinin istifadəsinə verilib. Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni xidməti binası da cari ilin ərməğanlarındandır. Hazırda rayonda Təhsil və Torpaq şöbələri üçün inzibati binanın tikintisində işlər sürətlə aparılır. İçməli su və kanalizasiya xətlərinin çəkilişi, rayon ərazisində sahilbərkitmə işləri də davam etdirilir.

Bir məsələni də qeyd edək ki, həyata vəsiqə alan bütün obyektlər müasir arxitektura üslubunda inşa edilib. Düşmənə gözdağı olan bu tikililəri sədərəklilər qoruyub saxlamağı, gələcək nəsillərə ərməğan etməyi özlərinin vətəndaşlıq borcu sayırlar.

### *Aqrar sahə inkişaf yolundadır*

Sədərəyin cari ilin ilk 7 ayında kənd təsərrüfatı sahəsində qazandığı uğurlar da ürəkaçandır. Dövlətin torpaq istifadəçilərinə göstərdiyi davamlı qayğı, xüsusilə taxıl istehsalçılarına dövlət büdcəsindən ayrılan vəsaitlər Sədərək kəndlisini torpağa daha möhkəm tellərlə bağlayır. Cari ilin məhsulu üçün rayonda 3574 hektar sahədə əkin aparılıb. Bölgədə daha çox inkişaf etdirilən əkinçilik sahələrindən biri taxılçılıqdır. Ölkənin ərzaq təhlükəsizliyi proqramına sanballı töhfələr verməyə çalışan rayon əməkçiləri bu il 2130,2 hektar sahədən 6146 ton “sarı kəhrəba” tədarük ediblər. Hektarın məhsuldarlığı 28,9 sentnerə çatdırılıb. Qazanılan yüksək nəticə sədərəkliləri gələn ilin bol məhsulunun əsasını qoymağa ruhlandırıb, sahələrin şumlanmasına başlanılıb.

“2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” Sədərək rayonunda da uğurla icra edilir. Mühüm elmi-nəzəri, sosial-iqtisadi əhəmiyyət kəsb edən dövlət proqramında qarşıya qoyulan tələblərin maksimum şəkildə icrası üçün münbit ərazi mövcuddur və əlverişli iqlim, eləcə də su təminatı baxımından rayonun potensialı və imkanları genişdir. Son iki ildə burada bağların yaradılması və ixtisaslaşdırılmasına, yerli şəraitə uyğunlaşdırılmış, məhsuldar meyvə-tərəvəz növlərinin çeşidlərinin bərpa edilməsinə xüsusi diqqət yetirilir. Barverən meyvə bağlarından ötən il 629 ton, bu ilin ilk 7 ayında isə 465 ton məhsul dərilib.

***Bir sözlə, Sədərək bu gün, sözün həqiqi mənasında, inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. Düşmənin, necə deyərlər, bir addımlığında, qənşərində olsalar da, bu sərhəd bölgəsinin adamları müzəffər ordumuza güvənir, heç nədən qorxub çəkinmirlər. Sədərəklilər ölkəmizin iqtisadi və müdafiə qüdrətinin daha da möhkəmləndirilməsi üçün bundan sonra da bütün qüvvə və bacarıqlarını sərf edəcəklər.***

Cəfər ƏLİYEV

# Regionumuzun iqtisadi inkişafında Naxçıvan Sement Zavodunun xüsusi əhəmiyyəti vardır



***Naxçıvanda quruculuq ünvanları bir-birini əvəz etməkdədir. Muxtar respublikamızda hər il yeni-yeni inzibati və çoxmərtəbəli binalar, fərdi evlər, istehsal və xidmət oybektləri, geniş rahat yollar və körpülər, universitet, orta məktəb, səhiyyə və sağlamlıq ocaqları, kənd mərkəzləri, turizm və xidmət obyektləri tikilməkdədir. Naxçıvan şəhərindən tutmuş ən ucqar yaşayış məntəqəsinədək müasir memarlıq üslubunda tikilib istifadəyə verilən bütün obyektlərdə istifadə olunan ən mühüm inşaat materiallarından biri isə, heç şübhəsiz, Naxçıvan sementidir. Bu, elə bir vacib inşaat materialıdır ki, onsuz nə binalar tikilər, nə rahat yollar salınar, nə də gözəl park və xiyabanlar yaradılar.***

Naxçıvan təbii sərvətlərlə zəngindir və onlardan səmərəli istifadə olunması muxtar respublika iqtisadiyyatının inkişafı baxımından çox mühüm məsələdir. Bu həm əhalinin artan tələbatının ödənilməsi, həm daxili bazarın yerli imkanlar hesabına ödənilməsi, həm də regionun təbii resursları hesabına yeni iş yerləri yaradılması baxımından mühüm əhəmiyyət daşıyır. Ona görə də günbəgün artan tikinti-quruculuq işlərində yerli inşaat materiallarından istifadənin təmin olunmasını Naxçıvanda həyata keçirilən ən uğurlu layihələr sırasında göstərmək olar.

Gündəlik istehsal gücü 800 ton olan bu zavodda müasir texnologiyaya əsaslanan avadanlıqlar quraşdırılmışdır. Keyfiyyətli sement istehsalı üçün zəruri olan xammal isə Naxçıvanın öz sərvətidir. Kəngərli rayonunun Çalxanqala kəndi ərazisindən gətirilən sement xammalı burada emal olunaraq yüksəkkeyfiyyətli sement kimi satış yerlərinə və beton zavodlara göndərilir. Zavodda olarkən öyrəndik ki, hazırda müəssisə tam gücü ilə fəaliyyətdədir. Bu da təbiidir. Tikinti-quruculuq işlərinin tam qızğın çağında Naxçıvan sementinə də hər yerdə tələbat vardır. İstehsalın fasiləsizliyini təmin edə bilmək üçün burada üçnövbəli iş rejimi tətbiq olunmaqdadır. Məşğulluq göstəricisi baxımından da müəssisə diqqəti cəlb edir: Naxçıvan Sement Zavodunda 260 nəfər işlə təmin olunmuşdur. İşçilərin xüsusi geyim, yeməklə təmin olunduğu zavodda yüksək texniki-təhlükəsizlik, ekoloji təmiz istehsal şəraiti yaradılmışdır. Qeyd edək ki, sement istehsalı müəssisəsi üçün bu, vacib şərtdir. Yüksək temperatur, təzyiq şəraitində həyata keçirilən istehsal prosesinə nəzarət üçün Yaponiyadan alınmış avadanlıqdan istifadə olunur. Almaniyadan alınmış qaz analizatoru avadanlığı vasitəsilə istehsal prosesində istifadə olunan təbii qaza tam avtomatik nəzarət etməklə təhlükəsizlik təmin olunur və enerjiyə qənaət edilir. Atmosferə tullantıların atılmasının qarşısının alınması üçün elektrostatik toztutan və torbalı filtrlər tətbiq olunur. Zavodun ətrafında yaradılmış yaşıllıq zolaqları və səliqə-sahman isə insanların yaddaşındakı həmin o ənənəvi köhnə sement zavod görüntülərindən tamamilə fərqli bir təsəvvür yaradır: zavodun kənarında əkilmiş ağacların yamyaşıl görüntüsü belə deməyə əsas verir.

Bəs Naxçıvan sementinin hansı üstün texniki keyfiyyətləri vardır? Naxçıvan sementi ən yüksək texniki göstərici olan 42,5 indeksli marka ilə istehsal olunur. Zavodda olarkən, ilk növbədə, bunu xammalın keyfiyyəti və texnoloji proseslərə dəqiq əməl olunması ilə izah etdilər. Bu göstəricinin mahiyyətinə gəldikdə isə bunun betonun yüksək möhkəmlik göstəricisi, aşınmağa qarşı davamlılığı, isti və soyuğa qarşı dözümlülüyündən ibarət olduğunu bildirdilər. Söz yox ki, Naxçıvan kimi kəskin kontinental iqlim şəraiti olan, qışda mənfi 30 dərəcə şaxta olan, yayda isə havanın hərarətinin 40 dərəcəyə çatdığı bir yerdə bu, çox vacib şərtdir. Odur ki, istehsal prosesində bunlar ciddi olaraq nəzarətdə saxlanılır.

Zavodda tətbiq olunan texnoloji avadanlıqların sazlığı, vaxtı keçmişlərin yeniləri ilə əvəz olunması daim diqqət mərkəzində saxlanılır. Bu isə, öz növbəsində, istehsal olunan məhsulun maya dəyərinin aşağı olmasına və dolayısı ilə satış qiymətlərinə də təsir edir. Belə ki, 50 kiloqramlıq torbada satılan Naxçıvan sementinin qiymətinin yaxın region ölkələrində və ölkəmizin digər sement zavodlarında istehsal olunan sementdən 20 faizə qədər ucuz olduğunu öyrəndik. Bu rəqəmin inşaat işi aparan şirkətlər və fərdi alıcılar üçün nə qədər əhəmiyyətli olduğunu isə demək artıqdır. Bundan əlavə, zavod sifarişləri vaxtında yerinə yetirə bilmək üçün Naxçıvan şəhəri və ətraf rayonlara daşıma servislərini də həyata keçirir.

Müasir texnologiyaya əsaslanan bir istehsal müəssisəsində görülən bütün bu işləri yüksəkixtisaslı kadr və işçi heyəti olmadan həyata keçirmək, şübhəsiz ki, mümkün deyil. Naxçıvan Sement Zavondunda da bu, belədir. Buradakı texnoloji proseslərə qardaş Türkiyə universitetlərinin mühəndislik fakültələrində təhsil almış, ingilis dilini mənimsəmiş naxçıvanlı gənclər rəhbərlik edirlər. İşçi heyətin bacarıq səviyyəsini artırmaq üçün onların Türkiyə və Çində treninq keçmələri təmin olunur. Bundan əlavə, Naxçıvan Sement Zavodunun işçiləri hər il Türkiyə Sement İstehsalçıları Birliyinin təşkil etdiyi birhəftəlik seminarlarda iştirak edir. Qeyd edək ki, bu il belə seminar Naxçıvanda keçirilmiş, burada Türkiyənin sement istehsalçıları ilə yanaşı, ölkəmizin digər regionlarındakı sement istehsalçıları da iştirak etmişlər. Təcrübə mübadiləsi aparmaq, istehsalın həcmini və məhsulun çeşidini artırmaq üçün bunlar çox vacib tədbirlərdir. Gələcəkdə ixracat imkanlarını artırmaq və xarici bazarlarda yer tuta bilmək üçün Naxçıvan Sement Zavodu yaradılmış bütün imkanlardan istifadə edir.

Naxçıvanda fəaliyyət göstərən hər bir istehsal və xidmət müəssisəsinin region iqtisadiyyatında öz yeri vardır. Hamı öz imkanları çərçivəsində çalışır, Naxçıvanın iqtisadiyyatına güc qatır. Amma muxtar respublikamızda hər bir quruculuq ünvanında, tikilən hər bir yaraşıqlı binanın ərsəyə gəlməsində bir müəssisənin özünəməxsus töhfəsi vardır: bu, 24 saat dayanmadan işləyən Naxçıvan Sement Zavodudur.

Əli CABBAROV

# Naxçıvanın emosiya bağları

*Təxminən, bir il bundan əvvəl Naxçıvan şəhəri haqqında bir yazı hazırlamışdım. Yazıda yaşadığımız şəhərin brend şəhərə çevrilməsi yollarından bəhs etmişdik. Onu da qeyd etmişdik ki, Naxçıvanın brend şəhərə çevrilməsi üçün çox gözəl imkanları var və bu imkanlardan düzgün istifadə yaxın illərdə bizə hərtərəfli uğurlar gətirə bilər. Son illər bu istiqamətdə davam etdirilən tədbirlər Naxçıvanın brendinq siyasətində mühüm rol oynamaqdadır. Sübut etməyə ehtiyac yoxdur ki, son dövrlər Naxçıvanın nüfuzu daha da artmış, ümumilikdə, muxtar respublikanın real təbliği üçün regionda baş verən ictimai-siyasi hadisələr mühüm rol oynamışdır. Bu hadisələri, eyni zamanda şəhərimizə olan rəsmi səfərləri gözümüz önünə gətirsək, bunun bir daha şahidi olarıq.*

Son bir il ərzində dünyanın onlarla ölkəsindən III Beynəlxalq Bakı Forumunda təmsil olunan iştirakçıların Naxçıvana səfəri, artıq siyasi ənənə halını almış xarici ölkə səfirlərinin Naxçıvanla tanışlığı, təkcə hərbi baxımından deyil, həm də regionun siyasi gücünə təsir edən Əlahiddə Ümumqoşun Ordusunun yaradılması, qonşu ölkələrlə qarşılıqlı rəsmi görüşlər və səfərlər, ölkə başçısının muxtar respublikanın 90 illik yubileyi tədbirində iştirakı, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin Naxçıvana məlum səfərləri və adını sadalamadığımız digər bu kimi hadisələr Naxçıvanın tanıdılması və təbliği baxımından mühüm rol oynamaqdadır. Yəni mahiyyətindən asılı olmayaraq, bura edilən səfərlər və keçirilən yüksəksəviyyəli görüşlər Naxçıvanı tanıtmağa və bu diyar haqqında məlumatları real olaraq qiymətləndirməyə imkan verir. Nəzərə alaq ki, dünya təcrübəsində də tanınmış şəhərlərin brendə çevrilmə strategiyasında obyektin tanıdılaraq təbliği və daha sonra ondan istifadə edilməsi mexanizmi dayanır. İndi isə diqqət edək. Yuxarıda sadaladığımız bütün görüş və səfərlərdə iştirak edən qonaqların hamısının tanış olduğu başlıca üç məkan var: Duzdağ mağaraları, Nuh Peyğəmbərin məzarüstü türbəsi və "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi. İstənilən brenddə emosiyanın (hiss, həyəcan, maraq) olması şərtdir. Əgər bu yoxdursa, o zaman həmin obyektin brendə çevrilmək imkanı da yoxdur. Ancaq qeyd etdiyimiz hər üç məkan özlüyündə bir emosiya daşıyıcısı olmaqla dünyəvi maraqları əks etdirir. İndi isə bu maraqlara həm də ayrılıqda nəzər salaq.



Naxçıvanın Duzdağ mağaraları haqqında indiyədək çox deyilsə də, bəhs edilən obyekt öz layiqli qiymətini müstəqilliyimizin bərpasından sonra, daha dəqiq desək, son dövrlərdə alıb. Mağaraların olduğu yeraltı sahədə kompleks işlər aparılıb, ərazidə otel yaradılıb, ətraf abadlaşdırılıb və sair. Burada emosiya doğuran odur ki, təbii ehtiyatları 90 milyon tondan çox olan Duzdağ dünyada təkdir və bura həm də unikal müalicəvi əhəmiyyəti ilə seçilir. Hər il müxtəlif ölkələrdən tənəffüs yolu xəstəliklərindən əziyyət çəkən yüzlərlə insan burada müalicə olunur və xəstələrin sağalma faizi çox yüksəkdir. Yaradılmış imkanlar nəticəsində ilin istənilən fəslində burada müalicə olunmaq mümkündür. Maraqlılığı ilə seçilən tərəflərdən biri də odur ki, Naxçıvanda ilkin şəhər mədəniyyətinin formalaşmasına təsir göstərən amillərdən biri də Duzdağ mədəniyyətidir.

Duzdağda aparılan araşdırmalar sübut edir ki, Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, eradan əvvəl 4-cü minillikdə bu proses daha geniş miqyas almış, mübadilə məqsədi ilə təlabatdan artıq duz tədarük olunmuş, bu isə, öz növbəsində, şəhərlərarası əlaqələrə və ticarətin inkişafına, eləcə də insanların Duzdağ ətrafında məskunlaşmasına gətirib çıxarmışdır. Elə ilkin yaşayış və şəhər mədəniyyətinin yaranıb inkişaf etdiyi yer kimi Naxçıvan tarixinin öyrənilməsi, tədqiq və təbliğ olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 20 aprel 2012-ci il tarixdə Sərəncam imzalanmış, sərəncama əsasən, "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda Beynəlxalq Simpozium keçirilmişdir. Həm keçirilmiş simpoziumun əhəmiyyəti, həm də bura gələn qonaqların Duzdağa maraqları, eyni zamanda Naxçıvana olan böyük marağı ön plana keçirməkdədir. Belə bir marağın olması isə təbiidir. Çünki Duzdağda həm tarix var, həm şəhər mədəniyyəti, həm də sağlamlıq var.



Qonaqların ən çox səfər etdikləri Nuh Peyğəmbərin məzarüstü türbəsi isə əcnəbi vətəndaşların düşüncəsində, sözün həqiqi mənasında, dərin iz buraxır. Bütün səmavi kitablarda öz əksini tapmış Ümumdünya Tufanından sonra bəşəriyyətin ikinci atası sayılan Nuh Peyğəmbərin bu torpaqda quruya çıxması, burada yaşaması, vəfat etməsi və məzarının qalıqlarının bu torpaqda tapılmasını təkcə yerli tarixçilər deyil, bura gələn səyahətçilər də zaman-zaman öz xatirələrində qeyd etmişlər. Qısa şəkildə ifadə etməli olsaq, elə bəşəriyyətin ikinci yaranış tarixini özündə əks etdirən bu abidənin istənilən əcnəbidə maraq, təəccüb, həyəcan doğurmaması mümkün deyil.

Və nəhayət, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi. Ümumiyyətlə, istənilən inkişaf etmiş ölkə və ya şəhərlərdə turistlərə təqdim olunan tarixi, mədəni abidələr sırasında dini abidələrin öz yeri var. Bəzən möhtəşəm tikilişinə, bəzən də cəmiyyətdə mövqeyinə görə bu dini abidələr turistlər tərəfindən maraqla izlənilir. Digər tərəfdən yanaşsaq, adı müqəddəs "Qurani-Kərim"də çəkilən istənilən dini abidələri dünyanın hər tərəfində minlərlə insan ziyarət edir ki, bu da həmin abidənin yerləşdiyi şəhərə xeyli sayda turist axınına səbəb olur. Həmçinin adıçəkilən ziyarətgahın möhtəşəm təbii görüntüsü də buranı görməyə gələn hər kəsi özünə valeh edir.



Təbii ki, yuxarıda adları qeyd olunan ünvanların hər biri qədim Naxçıvanın rəmzləri sayıla biləcək abidələrdir. Eyni zamanda bu abidələr qədim diyarımızın emosiya bağlarıdır. Çünki bu ünvanlarla tanış olanlar öz hiss-həyəcanını, təəccüb və marağını gizlədə bilmir. Məsələnin digər maraqlı tərəfi isə ondan ibarətdir ki, bu emosiya daşıyıcılarının bir-biri ilə də bağlılığı var: Nuh Peyğəmbərin və Əshabi-Kəhf mağarasının adı "Qurani-Kərim"də çəkilir, eyni zamanda Nuh Peyğəmbərin qədim Duzdağ mağaralarında çalışdığı haqda tarixi mənbələrdə məlumatlar var.

*Ötən dövr ərzində hər üç məkanın tanıdılması və təbliği istiqamətində görülən işləri həm də muxtar respublikada həyata keçirilən sistemli brend-marketinq fəaliyyətinin nəticəsi kimi dəyərləndirmək olar.*

**Səbuhi HƏSƏNOV**

# Hüquqi maarifləndirmə tədbirləri davam etdirilir

*Dünən Şərur Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Sərxanlı kəndində elektrik enerjisindən və təbii qazdan düzgün istifadə qaydalarına, həmçinin ətraf mühitin qorunmasına həsr olunmuş tədbir keçirilmişdir.*



Tədbiri giriş sözü ilə Sərxanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Asəf Quliyev açaraq tədbirin mahiyyətindən danışmışdır.

Şərur rayon prokuroru, baş ədliyyə müşaviri Kamil Şükürov "Enerji resurslarının talanmasına qarşı mübarizə" mövzusunda məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, muxtar respublikaya təbii qazın nəqli bərpa olunmuş, yeni elektrik stansiyaları tikilərək istifadəyə verilmişdir. Hazırda qarşıda duran başlıca vəzifə enerji resurslarından səmərəli istifadə olunmasından ibarətdir. "Hər bir idarə, müəssisə və təşkilat, eləcə də vətəndaşlar elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına qətiyyən yol verməməlidir", – deyən rayon prokuroru bildirmişdir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin mülkiyyət əleyhinə olan cinayətlər fəslinə "Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması" maddəsi əlavə olunmaqla cinayət qanunvericiliyimizdə bir sıra əməllər cinayət əməli kimi təsbit olunmuşdur.

Tədbirdə Şərur rayon prokurorunun müavini, birinci dərəcəli hüquqşünas Anar Həsənovun "Ətraf mühitin qorunması sağlam həyatımızın başlıca amillərindəndir" mövzusunda məruzəsi dinlənilmişdir. Qeyd olunmuşdur ki, ölkəmizdə son illərdə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə dair bir sıra normativ-hüquqi aktlar qəbul edilmiş, təbiətin qorunması sahəsində mühüm addımlar atılmışdır. Nəzərə çatdırılmışdır ki, ətraf mühitə ziyan vurulması nəticəsində bitki örtüyünün, heyvanların, su obyektlərinin, bioloji sərvətlərin məhv olması, atmosferin çirklənməsi və sair hallar baş verir. Odur ki, ətraf mühitin qorunması günümüzün vacib məsələlərindən biridir və bu iş hər kəsin vətəndaşlıq borcudur.

Vurğulanmışdır ki, ekologiyadan istifadə sahəsində inzibati məsuliyyət Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsindəki "Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar" fəslində, ekologiyadan istifadə sahəsində cinayət məsuliyyəti isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Ekoloji cinayətlər" adlanan 28-ci fəslində öz əksini tapmışdır. Anar Həsənov qanunsuz istifadə halları ilə əlaqədar İnzibati Xətalar və Cinayət məcəllələrindəki maddələr barədə sakinlərə ətraflı məlumat vermişdir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

*Avqust ayının 28-də Sədərək Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Sədərək kəndində təbii qazdan, sudan, elektrik və ya istilik enerjisindən düzgün istifadə qaydalarına, həmçinin valideynlərin hüquq və vəzifələrinə həsr olunmuş tədbir keçirilmişdir.*

Tədbirdə Sədərək rayon prokuroru, baş ədliyyə müşaviri Teymur Vəliyev "Təbii qazın, suyun, elektrik və ya istilik enerjisinin talanmasına görə cinayət və inzibati məsuliyyət" mövzusunda məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, böyük dövlət qayğısı nəticəsində muxtar respublikamızda əhali fasiləsiz elektrik enerjisi və təbii qazla tam təmin olunmuşdur. Hazırda qarşıda duran başlıca vəzifə enerji resurslarından səmərəli istifadə olunmasından ibarətdir. Ona görə də hər bir idarə, müəssisə və təşkilat, eləcə də hər bir vətəndaş elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına qətiyyən yol verməməlidir. Teymur Vəliyev qanunsuz istifadə halları ilə əlaqədar Cinayət Məcəlləsindəki maddələr barədə də sakinlərə məlumat vermişdir.

Vurğulanmışdır ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 276.2.8-ci maddəsinə əsasən, məişətdə istifadə edilmiş təbii qaz, su, elektrik və ya istilik enerjisinin haqqının ödənilmədiyi hallarda kreditorun tələbi ilə borcun ödənilməsi məqsədilə kreditorun ərizəsinə əsasən məhkəmə tərəfindən məhkəmə əmri çıxarılır. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 101-ci maddəsində isə su obyektlərindən və sudan istifadə qaydalarının pozulmasına görə inzibati məsuliyyət və belə inzibati xətaları törədən fiziki, hüquqi və vəzifəli şəxslər barəsində inzibati cərimələr nəzərdə tutulmuşdur.

Sonra Sədərək rayon prokurorunun köməkçisi, ikinci dərəcəli hüquqşünas Elvin Zeynalov çıxış edərək bildirmişdir ki, valideynlərin hüquq və vəzifələri Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12-ci fəslində təsbit olunmuşdur. Valideynlər öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malikdirlər. Yetkinlik yaşına çatmayan şəxslər nikah bağladıqda, eləcə də yetkinlik yaşına çatmayan uşaqlar qanunvericiliklə müəyyən edilmiş hallarda tam fəaliyyət qabiliyyəti əldə etdikdə valideynlərin bu fəsildə göstərilən hüquq və vəzifələrinə xitam verilir.

Valideynlər uşaqlarını tərbiyə etmək hüququna malikdirlər və uşaqlarını tərbiyə etməyə borcludurlar. Onlar uşaqlarının tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki, mənəvi inkişafına görə məsuliyyət daşıyırlar. Digər şəxslərlə müqayisədə öz uşaqlarının tərbiyəsində üstün hüquqlara malikdirlər. Uşaqların ümumi orta təhsil almalarına qədər onların maraqlarını nəzərə almaqla təhsil müəssisəsini və təhsil formasını seçmək hüququna malikdirlər. Dövlət valideynlərin bu hüquq və vəzifələrinə qanunda nəzərdə tutulmuş qaydada yalnız uşağın mənafeyi tələb etdiyi hallarda müdaxilə edə bilər.

Vurğulanmışdır ki, valideynlər uşaqlarının hüquq və mənafelərini müdafiə etməlidirlər. Valideynlərin və uşaqların maraqları arasında ziddiyyət yarandığı müəyyən olunarsa, müvafiq icra hakimiyyəti orqanı uşaqların hüquq və mənafeyini müdafiə üçün nümayəndə təyin etməlidir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

*"İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Demək olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur". Ümummilli lider Heydər Əliyevin dediyi bu sözlər idmançılarımızın yaddaşında dərin iz buraxıb.*

# Naxçıvan Muxtar Respublikasında atıcılıq idman növünə maraq artır





Ulu öndərimiz idman haqqında demişdir: ***"İdman, bədən tərbiyəsi müstəqil Azərbaycanın həyatında dövlət qayğısı ilə əhatə olunaraq, eyni zamanda həm gənclər üçün, həm də bütün cəmiyyətimiz üçün zəruri bir sahəyə çevrilibdir. Güman edirəm ki, bu dönüş, yəni bu hadisə gələcək üçün çox gözəl əsasdır və bizim millətimizin, xalqımızın fiziki sağlamlığı üçün, təkcə fiziki sağlamlıq deyil, zehni sağlamlığı üçün, sağlam gənc nəsil yetirməsi üçün çox gözəl əsasdır və biz hamımız bu sahəni bundan sonra daha da inkişaf etdirməliyik".***

Ölkəmizdə idmana göstərilən qayğı cəmiyyətimiz üçün idmançı yetişdirməklə yanaşı, həm də gələcək nəslin sağlam böyüməsində başlıca amildir. Naxçıvan Muxtar Respublikasında da idmana böyük maraq müşahidə olunmaqdadır. Təbii ki, bunun səbəbi muxtar respublika rəhbərinin idman sahəsinə xüsusi diqqət ayırmasıdır. Naxçıvan Muxtar Respublikasında geniş vüsət alan idman növlərindən biri atıcılıqdır.

Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyası cari ildə gördüyü işlərlə gəncləri və yeniyetmələri bu sahəyə daha çox cəlb etməyi bacarıb. Federasiyanın sədr müavini Fərhad Əliyev bizimlə söhbətində ilk olaraq 2014-cü ilin ilk 6 ayı ərzində gördükləri işlər barədə məlumat verdi: "Federasiyamızın məqsədi bu sahəni muxtar respublikada geniş yaymaq, gəncləri bu sahəyə yönəltməkdir. Buna görə cari ilin əvvəlindən başlayaraq mütəmadi turnirlər, yarışlar təşkil etmişik. Ötən ilin mart ayından fəaliyyət göstərən Atıcılıq Mərkəzinə gənclərin axını gündən-günə artmaqdadır. Keçirdiyimiz yarışlara gəlincə, bu il fevral ayının 24-də Naxçıvandakı Atıcılıq Mərkəzində 26 Fevral – Xocalı soyqırımına həsr olunmuş məktəblilər arasında peyntbol üzrə Naxçıvan şəhər birinciliyi keçirildi. Bu birincilikdə 24 idmançı 4 komandanın heyətində gərgin idman mübarizəsi aparıb. Aprelin 15-də Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi zamanı əlil olmuş vətəndaşların iştirakı ilə peyntbol üzrə Naxçıvan Muxtar Respublika birinciliyi təşkil olunub. Bu birincilikdə 20 idmançı 5 komandanın heyətində çıxış edib. Elə həmin ayın 22-də mərkəz daha bir birinciliyə ev sahibliyi edib. Belə ki, "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə ümumtəhsil məktəbləri arasında muxtar respublika üzrə zona birinciliyi məhz atıcılıq mərkəzində təşkil olunub. Bu birincilikdə 8 komandanın heyətində 40 idmançı iştirak edib. Bu yarışın qalibi olan Şərur şəhər 2 nömrəli tam orta məktəbin komandası 24-28 aprel tarixlərində Mingəçevir şəhərində keçirilən "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə Azərbaycan çempionatında iştirak edərək üçüncü yerə layiq görülüb".

Son olaraq, federasiya Atıcılıq Mərkəzində muxtar respublika turniri keçirib. Fərhad Əliyev bildirdi ki, 15 İyun – Milli Qurtuluş Günü münasibətilə iyun ayının 12-də Atıcılıq Mərkəzində güllə atıcılığı üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilib. Turnirdə 30 idmançı hədəfi daha dəqiq nişan almaq üçün mübarizə aparıb.

Sonda Fərhad Əliyev federasiyanın gələcək fəaliyyəti barədə məlumat verdi: "Qarşıdakı aylarda federasiya bir neçə turnir və yarış keçirməyi planlaşdırıb. Məqsəd isə gəncləri, yeniyetmələri bu sahəyə yönləndirməkdir. Deyə bilərəm ki, federasiyanın Atıcılıq Mərkəzinə axın hədsiz dərəcədə çoxdur və bu, bizi sevindirir. Muxtar respublika rəhbərinin idmana xüsusi diqqəti sayəsində gənclərin idmana marağı artıb. Qurulan infrastruktura, göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarıq".

**✍ Ceyhun MƏMMƏDOV**

*Mütəxəssis sözü*

# Kolza bitkisinin səciyyəvi xüsusiyyətləri və əhəmiyyəti

***Kolza xaççiçəklilər fəsiləsinə aid olan birillik zülallı və yağlı bitkidir. Onun vətəni şərqi Asiyadır. Bu gün dünyada ən geniş yayılma arealı Kanada, Hindistan, Cənubi Amerika, Avstraliya, Çin, Almaniya, İran və Türkiyə ərazilərdir. Azərbaycanın Zaqatala, Qax, Balakən, Qusar, Gədəbəy rayonlarında əkilib-becərilməkdədir. Ötən əsrin 50-60-cı illərində Naxçıvan Muxtar Respublikasının bir neçə kolxoz və sovxoz təsərrüfatında silos şəklində mal-qara üçün yem ehtiyatı toplanması məqsədilə əkini keçirilmişdir.***



***Botaniki xüsusiyyətləri.*** Naxçıvan Muxtar Respublikasında əkini keçirilmiş kolza bitkisi raps və şalğam turp adı ilə məşhur olmuşdur. Kolza bitkisi birillik və ikiillik olur. Tərəvəz bitkisi kimi, ilk olaraq, İsveç botaniki Kasper Banxin kolzanın bioloji və botaniki təsvirini vermiş və müəyyən olunmuşdur ki, bu bitki yabanı turp və Çin kələminin təsadüfi çarpazlaşması nəticəsində meydana gəlmiş bir hibriddir. Xaççiçəklilər fəsiləsinə aid olan bu bitki soyuğa davamlıdır. Yarpaqlarının üzəri sürüşkənliyə malik olub, qalın, bir növ, dilimlənmiş kələm yarpağını xatırladır.

Gövdəsi şaxələnmiş hündürboy, düz, sərtdir. Yarpaqları boz-yaşıl, alt hissəsi tünd-yaşıl, kökü güclü inkişaf etmiş, yuxarı hissəsi oturaqdır. Məhsuldar çiçəkaçma dövrü çiçəkləri çötkəvari, çiçəklənmənin axırında isə ovalvari olur. Meyvələri buynuzvari qutucuqlarda yerləşməklə qızılı sarı və ya qonur rənglidir. Toxum yerləşən buynuzcuqların uzunluğu 5-10 santimetr olmaqla pilləvaridir. Bu bitki çarpaz tozlanır və çiçəkləmə dövrü 30-40 günə qədər uzana bilir. Toxumları xaççiçəklilər fəsiləsinə aid olan digər bitkilərlə müqayisədə çox kiçikdir. Cücərməsi üçün optimal temperatur 2-3 dərəcədir. Vegetasiya müddəti 120-145 gündür.

***Əkini və tətbiq olunan aqrotexniki tədbirlər.*** Payızlıq kolza, başlıca olaraq, yağlı bitki kimi becərilir, lakin yaz əkinində yaşıl kütlənin yüksək məhsulunu (bəzən hər hektardan 600-800 sentnerə qədər) almaq olar. Kolza bitkisi üçün ən yaxşı sələf taxıl bitkiləri və qarğıdalıdır. Bu bitki istiyə tələbkardır, dərin qara torpaqlarda, qida elementləri ilə zəngin başqa torpaqlarda yüksək yaşıl kütlə məhsulu verir. Əkin üçün əvvəlcədən sələfə uyğun torpaq sahəsi seçilir, analiz aparılaraq tərkibindəki qida elementləri öyrənilir. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasının torpaqlarında əkin aparılmazdan əvvəl hər hektara 25-30 ton üzvi gübrə, fiziki çəkidə 200-250 kiloqram azot, 120-130 kiloqram fosfor, 120 kiloqram kalium gübrələri səpib 25-35 santimetr dərinliyində şum qaldırılmalıdır. Gillicəli və qumsal torpaqlarda azot-kalium gübrələri ilə yemləmə daha əlverişlidir. Aparılan təhlillərin nəticələri göstərir ki, bu bitki qış dövründə 15 dərəcə şaxtaya dözə bilir. Ona görə də Naxçıvan Muxtar Respublikasının kontinental iqlim şəraiti nəzərə alınaraq əkinin erkən yazda, yəni mart ayının üçüncü ongünlüyündə aparılması məqsədəuyğun hesab edilir.

Kolzanı erkən yazda enli cərgəli üsulla (cərgə araları 45-60 santimetr) dənli və ya tərəvəz bitkilərinin toxumlarını səpən maşınlarla səpirlər; toxumun səpin norması hər hektara 8-10 kiloqram təşkil edir.

Yüngül torpaqlarda toxumlar 2-3, ağır torpaqlarda isə 10 santimetr dərinliyə basdırılır. Yaxşı gübrələnmiş sahələrdə faraş əkinlər iki biçin almağa imkan verir.

Naxçıvan şəraitində xəstəliklərə tutulma ehtimalı çox azdır. Əgər tutulmuş olarsa belə, çox asanlıqla kimyəvi mübarizə aparılmaqla qarşısı alına bilir. Yaşıl kütləsini bütün növ otbiçən maşınlarla, dən məhsulunu isə taxılbiçən kombaynlarla tədarük etmək olar. Quraqlığa həddindən artıq davamlıdır. Vegetasiya müddətində cəmi 4 dəfə suvarılır.

Çalışmaq lazımdır ki, əkin aparılarkən şırım üsulundan istifadə olunsun. Şırım üsulunda biçin asan olur, həmçinin suvarma suyundan qənaətlə istifadə edilir.

***Əhəmiyyəti.*** Əhalinin yeyinti məhsulları, xüsusən zülalla zəngin yüksəkkalorili qida maddələri ilə təmin edilməsi, eləcə də heyvandarlığın yem rasionunun zülala görə tarazlaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Heyvanların yem payında zülal çatışmazlığı nəticəsində hər il xeyli yem səmərəsiz istifadə olunur. Ona görə də ərzaq məhsulları üçün yağ və zülal ehtiyatının yaradılması baxımından dənli-paxlalı və yağlı bitkilərin , o cümlədən kolzanın böyük əhəmiyyəti vardır.

Kolza qiymətli texniki, yem və ərzaq bitkisidir. Başqa dənli-paxlalı bitkilərdən fərqli olaraq, onun yaşıl kütləsində və dənində olan yağların, zülalın miqdarı çox, keyfiyyəti yüksəkdir. Buna görə də əksər ölkələrdə kolza bitkisinin yüksək texnologiya əsasında əkilib becərilməsinə, eləcə də ondan müxtəlif məqsədlər üçün istifadəyə xüsusi önəm verilir.

Kolza bitkisinin tərkibində protein və vitaminlər, xüsusilə karotin daha çoxdur. Tərkibi kəmiyyət və keyfiyyət göstəricilərinə görə zeytun yağından geri qalmır. Dünyanın bir sıra inkişaf etmiş ölkələrində, o cümlədən Kanada, Çin, Hindistan, Türkiyə, eləcə də Avropa ölkələrində kolza yağından istifadəyə üstünlük verilir. Bu gün dünyada hər il 22,5 milyon tona qədər kolza yağı istehsal edilir. Hətta Almaniyada dizel mühərriklərində və elektrik transformatorlarında kolza yağı sınaqdan keçirilmiş, ilkin olaraq, uğurlu nəticələr əldə edilmişdir. Təbabətdə zeytun, soya, badam yağları kimi müxtəlif xəstəliklərin müalicəsində geniş istifadə olunur. Səmərəli və sərfəli göstəriciləri nəzərə alınaraq kolzanın Naxçıvan Muxtar Respublikası şəraitində əkilib becərilməsi məqsədəuyğundur.

**Əsgər HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi torpaq mülkiyyətçilərinə, həmçinin fermerlərə bitkiçilik və heyvandarlıq sahələrində mövsümlə bağlı aşağıdakı işlərin görülməsini tövsiyə edir.*

# Sentyabr ayında kənd təsərrüfatı sahəsində hansı işlər görülməlidir?

***Meyvə və üzüm bağlarında*** – Meyvə bağlarında məhsul yığımı davam etdirilir. Məhsulu yığılmış, eləcə də cavan ağaclardan ibarət meyvə bağında suvarma işi aparılmalıdır.

Üzüm bağlarında da kütləvi məhsul yığılır və satışa göndərilir. Məhsul yığıldıqdan sonra tənəklər suvarılır.

***Əkinçilikdə*** – Payızlıq taxıl əkinlərinin mütəşəkkil keçirilməsi üçün sahələr seçilir, şum qaldırılır və əkinə hazırlıq işləri görülür. Səpin üçün tədarük edilmiş taxıl toxumları dərmanlanır və əkin aparılır. Toxumların dərmanlanmasında (alyans, dinit, qranozan, vitovaks və sair) preparatlardan istifadə edilir.

2015-ci ilin məhsulu üçün payız şumu qaldırılır.

Səbzə tərəvəzlərin əkini aparılır.

Bostan əkinlərində kütləvi məhsul yığımından sonra suvarma davam etdirilir.

***Maldarlıqda*** – Mal-qara saxlanacaq binalar təmir edilərək qışlamaya hazırlanmalıdır. Mallar zoobaytar müayinəsindən keçirilərək damazlığa yaramayanlar çıxdaş edilməli və kökəldilməyə qoyulmalıdır.

***Qoyunçuluqda*** – Qoyun saxlanacaq binaların təmiri və dezinfeksiya işləri başa çatdırılmaqla qış yataqlarına tələbata uyğun yem və duz tədarükü davam etdirilməlidir. Heyvanlar zoobaytar müayinəsindən keçirilməklə damazlığa yaramayanlar çıxdaş edilərək kökəldilməyə qoyulmalıdır.

***Quşçuluqda*** – Daha çox yumurta götürmək üçün quş saxlanan binalarda təbii və süni işıqlandırma müddəti 14-16 saata çatdırılmalıdır. 18 aylıq yaşda olan toyuqların məhsuldarlığı azaldığına görə çıxdaş edilərək satışa verilməli, onların yeri bərpa edilməlidir.

***Arıçılıqda*** – Arı ailələri diqqətlə yoxlanılmalı, yaşlı analar (2-3 yaşdan yuxarı analar) pətəkdən kənarlaşdırılmalı və mayalanmış cavan analarla əvəz edilməlidir.

***Arı ailələrinin müalicə və profilaktikası***

**Varroatoz xəstəliyi.** Bu xəstəliyə qarşı teda, varroset, akarasan, vamitrat, rulamit, timol preparatlarından təlimat üzrə istifadə edilməlidir.

*Akarapidoz xəstəliyi*nə qarşı folbeks, teda, akarasan, qarışqa turşusu tətbiq olunmalıdır.

*Amerika və Avropa çürüməsi xəstəlikləri.* Belə xəstəlik zamanı arı ailələri dezinfeksiya olunmuş pətəklərə köçürülür. Xəstəlik oksivit, oksitetraskilin, baktopol, oksibaktosid və digər bu kimi preparatlarla müalicə edilməli və ya pətəklə birlikdə yandırılmalıdır. Bu xəstəlik karantin xəstəlik olduğu üçün baytarlıq orqanına bildirilməlidir.

Arıçılıqda sentyabr ayında həyata keçiriləcək tədbirlərdən biri də arı ailələrinin yemləndirilməsidir. Qışlamaya hazırlıq məqsədilə cavan arıların yetişdirilməsi üçün arılar 1:2 nisbətində vitaminli şəkər şərbəti ilə yemləndirilməlidir (sentyabrın 2-ci ongünlüyünədək).

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## *Allah rəhmət eləsin*

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov və institutun əməkdaşları akademik İsmayıl Hacıyevə, əzizi **ŞUEYBİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Tibb Kollecinin direktoru İlhamə Mustafayeva və kollecin kollektivi iş yoldaşları Məmmədtağı Tağıyevə, yaxın qohumu **MÜZƏFFƏRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Nailə Məmmədovaya, anası **FƏRİDƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 735